*Hadiyeva Sonaxanım. Dağlar Oğlu Dədə Şəmşir*
*//Elmi əsərlər,2022,2(15),iyul-dekabr,s.24-29.*

UOT 82-1.512.162. 398

**Sonaxanım Hadiyeva,**
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç., 26*
*e-mail:* sonaxeyal@mail.ru

# DAĞLAR OĞLU DƏDƏ ŞƏMŞİR

**Açar sözlər:** *aşıq ədəbiyyatı, poeziya, Kəlbəcər ədəbi mühiti, Aşıq Şəmşir.*

Azərbaycan aşıq ədəbiyyatının görkəmli nümayəndəsi, dövrünün tanınmış sənətkarlarından olan Aşıq Şəmşir rəngarəng mövzulu yaddaqalan ədəbi nümunələr yaratmışdır. XX əsr Azərbaycan poeziyasında öz yeri, öz nəfəsi olan, "Dədə Şəmşir" deyə müraciət olunan şair müasirləri arasında təkcə sənətkar kimi deyil, həm də bir ağsaqqal kimi hörmət qazanmışdır. Kəlbəcər ədəbi mühitinin yetirməsi olan Aşıq Şəmşirin hələ sağlığında şeir topluları işıq üzü görmüşdür. Onun ilk şeirlər kitabı da Xalq şairi Səməd Vurğunun təşəbbüsü ilə çap olunmuşdur. Səməd Vurğunla Dədə Şəmşirin dillər əzbəri olan deyişməsi iki böyük sənətkarın dostluğunu göstərir. Səməd Vurğunun

*Aşıq Şəmşir, Dəlidağdan keçəndə,*
*Kəklikli dağlardan xəbər al məni.*

misraları ilə başlayan müraciəti "məni" rədifi ilə davam edir və Aşıq Şəmşir də ona "səni" rədifi ilə cavab verir. Hər iki sənətkarın bir-birinə hörməti, hüsn-rəğbəti diqqəti çəkir. Sonda şairin

*Demə Səməd Vurğun gəldi-gedərdi,*
*Unutmaz bu oba, bu mahal məni.*

sözünə cavab olaraq Aşıq Şəmşir şeirdə mayak sandığı, qabil sənətkar, söz ustadı hesab etdiyi şairin qarşısında təvazökarlıq edərək deyir:

*Şəmşirlə görüşün qaldı yadigar,*
*Unutmaz nə qədər canında can var.*
*Səndən dərs almağa diyarbədiyar*
*Gəzirəm əlimdə şam – çıraq, səni.*

Aşıq Şəmşir "Vurğunun" rədifli qoşmasında da Səməd Vurğun sənətkarlığını obrazlı ifadələrlə tərənnüm etmiş, onun söz sənətinə böyük dəyər vermişdir. Onu Səməd Vurğunla bağlayan saz və sözdür. Şair Səməd Vurğun yeri gələndə saz çalıb söz qoşduğu kimi, Aşıq Şəmşir də əlinə qələm alıb gözəl şeir nümunələri yaratmışdır.

XX əsrdə Azərbaycanın böyük aşıqlar ordusu olmuş, amma aşıqların çoxu sadəcə aşıq kimi fəaliyyət göstərmişdir. Çox az aşıq şair səviyyəsində söz söyləyə bilmişdir ki, bu sırada Aşıq Şəmşir birincilərdəndir.

Müasir poeziyamızın görkəmli nümayəndələrindən olan Adil Cəmil Aşıq Şəmşirə ithaf olunmuş "Ünvanımız Dədə Şəmşir" adlı şeirlər toplusuna yazdığı "Saz və söz sənətinin Aşıq Şəmşir zirvəsi" adlı ön sözdə tariximizlə, ədəbiyyatımızla, folklorumuzla bağlı əyərli fikirlərini oxucularla bölüşür, Aşiq Şəmşir yaradıcılığının "xalq deyimindən, xalq duyumundan süzülüb gələn" poetikasından söz açır və yazır: "Dədə Şəmşir aşıq şeirinin müx-

təlif poetik formalarında qələmə aldığı nümunələrlə - qoşma, gəraylı, təcnis, divani, bayatı, rübai, qəzəl və müxəmməsləri ilə Kəlbəcər ədəbi mühitini, eləcə də yazılı və şifahi poeziyamızın ən önəmli cəhətlərini ustalıqla mənimsəyən və buna öz vəhyini, fitrətini əlavə edən qüdrətli söz sənətkarı kimi fərdi məktəbini yaratmışdır. Kəlbəcər ellərində qırxdan artıq şəyirdinin aşıq sənətinə yiyələnməsində ustad sənətkarın xidmətləri danılmazdır" (s.11-12).

*Qocaman Şəmşirəm, sinədəftərəm,*
*Əzəldən saz ilə olmuşam hərəm.*
*Etibarda bir qulami-kəmtərəm,*
*Səcdəliyəm doğru söz qabağında.*

deyən şairin möhkəm xarakteri şeirlərinə çökmüşdür. Aşıq Şəmşirin şeirlərindən onun həyat tərzini, bu pak insanın xarakterik xüsusiyyətlərini öyrənmək olar. Onun yaradıcılığında "Bir mərdin yolunda ölmək lazımdı", "Yaradandan nə pul istə, nə də mal, Qoy təki ağıllı övladın olsun", "Şəmşir, halal sənət qanadın olsun", "Dədə Şəmşir dərdə, hicrə dözəndi, Çəksələr dilindən dara, inciməz", "Şəmşirin var pünhan sözü bəlkə də, İstəyir sözünü insana desin", "Uçmaz məhəbbətin barısı məndə", "Yolu bir həqiqi yoldu Şəmşirin" kimi yüzlərlə misra tapmaq olar. Şair özündə olan müsbət keyfiyyətlərin soykökdən gəldiyini vurğulayaraq yazır:

*Miskin nəvəsiyəm bir ocaqzada,*
*Halal, təmiz ad qazandın dünyada.*
*Tale duamızı eləsin əta,*
*Kəskin nəfəslərin diləyi kimi.*

*Şəmşirəm, yetmişi ötübdür yaşım,*
*Doğru sədaqətə qurbandır başım.*
*Çatıb öz yaşıma həyat yoldaşım,*
*Bilirəm göylərin mələyi kimi.*

Hüseyn Arif Aşıq Şəmşirin şeirlər toplusunun "Dədə Şəmşir – dağ çeşməsi" adlı ön sözündə şairin "Milli şeir zəmini üzərində aşıq poeziyasını yeni-yeni boyalarla, cizgilərlə zənginləşdirdiyini" xüsusi vurğulayır, Şəmşir yaradıcılığını klassik aşıq poeziyası ilə müasir aşıq poeziyası arasında qüvvətli bir keçid, körpü hesab edir və folklorçuları bu cəhətə diqqət etməyə çağırır. Müəllif yazır: "Bu dağlar oğlu, ellər aşığı dağlara arxalandığı üçün bir əsrə yaxın ömrün enişli-yoxuşlu yollarında büdrəmədən irəliləmiş, xalqı üçün gözəl gəraylılar, qoşmalar, müxəmməslər, təcnislər, bağlamalar yaratmışdır" (s.4-5).

Aşıq Şəmşir sözün əsl mənasında dağlar oğludur. Onun poeziyasında dağ obrazı ən çox işlənən obrazlardandır. "Dağlara" adlı şeirdə "Dürlü sədəf kəsim zərli şeirdən, Rəssam olum qoy mən düzüm dağlara", "Şeirdən düşübdü izim dağlara", "Uşaqkən öyrənib üzüm dağlara", "Həsrət qalır yenə gözüm dağlara", "Atam Dəlidağdı, İstisu anam, Nəvə olub oğlum, qızım dağlara", "O qədər yazmışan dolub varaqlar, Əfsundu söhbətim, sözüm dağlara" kimi misralar maraq doğurur. Dağlar haqqında şeirlər çoxdur. Uşaqlığı dağlarda keçən hər bir şairin yaradıcılığında dağ məhəbbətini, dağ həsrətini hiss etmək olur. Amma özünü dağlar oğlu adlandıran şairlər çox olubsa da, övladlarını dağların nəvəsi adlandıran Dədə Şəmşir fikrində bir qədər də yüksəkliyə qalxmış və əməlində olduğu kimi, şeirində də özünün həqiqətən dağlar oğlu olduğunu sübuta yetirmişdir. Məhərrəm Qasımlı "Azərbaycan aşıq ədəbiyyatı" adlı kitabında "Dədə Şəmşir yaradıcılığına da geniş yer ayırmışdır.

Müəllif "Aşıqlığın Dədə Şəmşir ucalığı" adlı əhatəli tədqiqatında yazır: "Aşıq Şəmşir dağlar oğlu idi. Yurdumuzun dilbər guşələri, axar-baxarlı yaylaqları, durnagözlü bulaqları, könül oxşayan əsrarəngiz təbiəti onun qürur yeri və tükənməz ilham qaynağı idi. O öz şair-aşıq qürurunun poetik ünvanını saz sinəsindən böyük şövqlə dalğalandırırdı" (s.134-135).

Aşıq Şəmşirin "Baxıram" adlı şeirində "Daha qocalmışam, yerimir ayaq, İntizarla bu dağlara baxıram", "Görmürəm Kəpəzi gör neçə ildi, Nə Murova, nə Qoşqara baxıram", "Dağları" adlı qoşmasında "Oyat yuxusundan yatar dağları", "Köçəndə kaş mənə deyəydi fələk, Götür özün ilə apar dağları", "Qolları çox uzun qoldu Şəmşirin, Qucub ana kimi öpər dağları", "Ağlar" rədifli şeirində "Tapılmaz o gündə şeirimi yazan, Dağlar nalə çəkər Şəmsirsiz, ağlar", "Göründü" adlı şeirdə "Gileyli gedirdim, açıldı dumaq, Dağların başının qarı göründü", "Bilmirəm" adlı şeirində "Dağ obası edir arana güzar, Mən dağlar oğluyam, gedə bilmirəm", "Dağlsar kimi gözəl cənnət harda var" deyən şairin oğlu Qənbər Şəmşiroğlu atasına ünvanladığı "Dədə" şeirində yazır:

*Səsim qulağına çatsın, ay dədə,*
*Bəlkə bu günləri görüb qalmısan.*
*Dedin : "Dağ oğluyam, ayrı düşmərəm",*
*Dağlarla baş-başa verib, qalmısan...*

Aşıq Şəmşir "Dağlar" şeirində "Yaz köksündən daşqın sellər axmasa, Yanar Qarabağın torpağı, dağlar", "Şəmşir ayrı düşüb gör nə zamandır, amandır, siz verin sorağı, dağlar", "Gəl" adlı qoşmasında "Qarabağ gözəli, bizim dağlara Zımistanın gözü yumşalanda gəl", "Beş ay cənnət olur dağların halı", "Şəmşiri görəndə" adlı şeirində "Dağdan küsüb köç edirsən arana, qayıdıb dağlara gələrsənmi, hə?", digər "Dağlar" şeirində "Mən sənə övladam, tanışam, dağlar", "Sizin zirvənizə qonmuşam, dağlar", "Söylə görüm" adlı şeirində "Söylə görüm, çoxlu buzluq, Dağlar həmən yerindəmi?" kimi misralar da şairin dağ sevgisini, dağ həsrətini, dağlara nə qədər bağlı olduğunu açıqlayır.

Aşıq Şəmşir yaradıcılığını müxtəlif aspektdən işıqlandıran Sədnik Paşa Pirsultanlı "Aşıq Şəmşirin poetik aləminə səyahət" adlı kitabında yazır: "Aşıq Şəmşir şeiriyyətinin çox hissəsi dağların payına düşür. Dağlar onun poeziyasının əzəli mövzusudur. Bütün ömrü boyu öz sevincini də, kədərini də heç kəsə yox, dağlara deyib. Özünün dediyi kimi dağlar həmişə ata kimi, ana kimi onun nazını çəkib, onunla həmsöhbət olub. Şəmşir də ürəkaçıqlığı ilə dərdini dağlara, bulaqlara, dumana, çənə deyib, çiçəklərdən, güllərdən əlvan rənglər alıb şeirlərinə gətirib. Azərbaycanın bu füsunkar təbiəti həmişə onu ilhamlandırıb, xəyalını, düşüncəsini zənginləşdirib. Bulaqlar göz-göz axıb, nəhrlənib çaylara dönüb, çaylar göllər yaradıb, elə göllər ki, onu əhatə edən dağlara güzgü tutub. Tərtər kimi çaylar dənizlərin ana qoynuna tələsir, Tərtər də Xəzərə qovuşmağa çalışır. Aşıq Şəmşir iftixarla deyir: "O Kürün, arazın Tərtəriyəm mən" (s.48-49).

Mikayıl Azaflı "Aşıq Şəmşirin 80 illik yubileyinə həsr etdiyi "Gəlsin" şeirində yazır:

*Aşıq Şəmşir, dağlar oğlu,*
*Köklə sazın zilə gəlsin.*
*Söz qoşunun alay-alay,*
*Qatar-qatar ilə gəlsin.*
*Duyğular da zülal kimi,*
*Min mənalı sual kimi.*
*Qıy vuranda qartal kimi,*
*Dağlar, daşlar dilə gəlsin.*

Aşıq Şəmşir yaradıcılığında ümumi vətənə, torpağa həsr olunmuş şeirlər çoxdur. “Azərbaycanın”, “Oğluyam”, “Vətənin”, “Qarabağda”, “Torpaq”, “Yaylaqlar” və s. bu kimi şeirlərində şairin vətənpərvərlik duyğuları misralanır, vətəndaşlıq qayəsi dinir: “Doymaram dolansam yüz il başına, Bu uzun illəri Azərbaycanın”, ”Cəvahirdir Azərbaycan”, “Daş atanın daşı özünə dəysin, Toxunmasın dırnağına vətənin”, “Yadıma düşübdür buzluq dərəsi, Gəl indi dərdimi say Qarabağda”, “Şəmşir aşiq olub sənə, Anam kimi görün mənə. Əl uzat qədir bilənə, Yaşat, yetir sona, torpaq”, “Sən daim qalırğı, mən köçərgiyəm, Şeirim səndə bəlkə qala, yaylaqlar”...

Dədə Şəmşirin Kəlbəcəri tərənnüm edən şeirləri daha hərarətlidir. Onun “Kəlbəcərdi”, “Kəlbəcərin”, “Ana yurd”, “Ağdabandan”, “Baş arasında”, “Məhərrəm”, adlı şeirlərində “Bir xoş guşə varsa əgər, o da bizim Kəlbəcərdi. Duyan könlüm, sevənqəlbim, gülər üzüm Kəlbəcərdi”, “Sanki şərbət piyləsi Bulaqları Kəlbəcərin”, “Anam səndə çox telini daranı, Sənsən mənə şirin ana, ana yurd”, “Ölsən də ayrılma, gəl, Ağdabandan”, “Kəndim Ağdabandı, yaylağım Murov, Sözümdə məharət, qılıncımda sov...”, “Elim Kəlbəcərdi, kəndim Ağdaban” kimi ürən qanıyla çağlayıb, içdən gələn səmimi misralar çoxdur.

Məmməd Aslan Aşıq Şəmşirin “O Kürün, Arazın Tərtəriyəm mən” adlı kitabına yazdığı ”Redaktordan” adlı yazısını belə bitirir: “Kəlbəcər hər bir kəlbəcərlinin bir fiziki ömür müddətində vətəndir. Dədə Şəmşir isə bütün ömürlər müddətində Kəlbəcərin sahibidir.

Aşıq Şəmşir Dəlidağın və cümlə kəlbəcərlilərin əlində-ovcunda qalan mənəvi dəyərimizdir! Başqa sözlə, canlı Kəlbəcərimizdir Dədə Şəmşir!!!” (s.7).

Aşıq Şəmşirin müasiri olan, dövrünün tanınmış siması Aşıq Pənah “Çal, oxu” şeirində yazır:

*Qoca Şəmşir, al sazını döşünə,*
*Kəlbəcərdən səsin gəlsin – çal, oxu.*
*Səmtini sal bbulaqların başına,*
*Gəncliyini bir yadına sal, oxu.*

Aşıq Şəmşir yaradıcılığında bütövlükdə Azərbaycan təbiətini görmək olar. Onun bədii təsvir və ifadə vasitələri ilə misralanmış təbiət obrazları diqqəti çəkir. İstər zaman kəsiyi – illər, fəsillər, istər məkan məsafəsi – dağlar, yaylaqlar, çəmənlər, çöllər, istərsə də bu məkanları bəzəyən ağaclar, güllər, çiçəklər Şəmşir qələmi ilə misralanıb şeirləşib və bu günə kimi yol gəlib. Gülxani Pənah “Saz-söz ustadları – Dədə Şəmşir” adlı kitabındakı “Aşıq ədəbiyyatının ustad sənətkarı Dədə Şəmşir” adlı tədqiqat işində yazır: “Onun şeirlərində Kəlbəcərin bəlkə də bütün gölləri, dağları, düzləri,yaylaqları, gülləri, çiçəyi vəsf olunur. Adını çəkdiyi hər el-oba haqqında şair məhəbbət dolu ürəklə danışır. Bir yanında lalə, bir yanında qar gördüyü yurdunun coğrafi xəritəsini Aşıq Şəmşir sözlə yaradır. Bəlkə də yeganə aşıqdır ki, onun yaradıcılığında ana yurd bu qədər bütün adlarıyla şeirlərə salınmışdır” (s.476).

Vətən torpağını, ana yurdu, doğma kəndini dəfələrlə şeirə salan Dədə Şəmşir bu gün onu görməyən kəlbəcərlilərin qələmində də mədh olunmuşdur. Nakan şairimiz Orxan Adiloğlu “Haq vergisi, Tanrı payı” adlı şeirində yazır:

*Elimizin ağsaqqalı*
*Sənsən bizim, Dədə Şəmşir.*
*Başı qarlı dağlarında*
*Qaldı izin, Dədə Şəmşir.*

Uzun illər işğal altında qalan yurd yerlərimizdən biri də Kəlbəcər olmuşdur. Qarabağ sevdasına düşən mənfur düşmən işğal etdiyi bütün yurd yerləri kimi Kəlbəcəri də xaraba qoydu. Hətta Dədə Şəmşirin evini belə dağıtdı. Bəli, binalar dağıldı, bağlar-bağçalar məhv edildi, hətta məzarlar belə təhqir olundu. Amma bütün bunlar Dədə Şəmşirlərin izini Kəlbəcərdən silə bilmədi. Bu izlər o qədər dərindir ki, illər deyil, qərinələr, əsrlər belə bu izləri silib itirə bilməz.

Kəlbəcərin ağır günlərini bir çox şairlər şeirlərində təsvir etmiş, onlardan bəziləri Kəlbəcər həsrətilə dünyadan köçsələr də ümidləri bu gün doğrulmuş, nəhayət, Kəlbəcər azad olunmuşdur. Kəlbəcərin gözəl günlərini tərənnüm edən Aşıq Şəmşir isə Kəlbəcərin ağrılı-acılı günlərini görmədən dünyasını dəyişmişdir. Çox güman ki, işğal illərində Dədə Şəmşirin narahat ruhu tez-tez Kəlbəcəri ziyarət etmişdir.

Xaqani Həbiboğlunun Aşıq Şəmşirə həsr olunmuş çox maraqlı, diqqəti çəkən bir şeiri vardır. Şair "Şəmşirin" adlı bu şeirində atası Qurbanın, babası Miskinin Şəmşir çırağına yağ tökdüyünü vurğulayır, sonra Şəmşir yurdunun işğal olunduğunu xatırladır və Kəlbəcərin Şəmşir sorağına qayıdacağını vurğulayaraq şeiri böyük ümidlə bitirir:

*Xaqani, susdu tar, sındı saz demə,*
*Dağlarsız gələcək bahar, yaz, demə.*
*"Bir də o Kəlbəcər qayıtmaz" demə,*
*Qayıdacaq sorağına Şəmşirin.*

Dədə Şəmşirə həsr olunmuş şeirlər çoxdur. Aşıq Şəmşir yaradıcılığna həsr olunmuş məqalələr, hətta kitablar vardır. Ümid edirik ki, onun yaradıcılığı hələ bundan sonra da tədqiq olunacaq, sadə, səmimi şeirlərdən boylanan böyük şair ürəyinin çırpıntıları, vətən məhəbbəti tədqiqat obyekti kimi bir çox tədqiqatçıların diqqətini cəlb edəcəkdir. Xalq şairi Səməd Vurğuna və Aşıq Şəmşirə həsr olunmuş konfrans Aşıq Şəmşir yaradıcılığını yenidən gündəmə gətirəcəkdir.

**Ədəbiyyat:**

1.Aşıq Şəmşir. Şeirlər. Bakı: "Yazıçı" nəşriyyatı, 1980, 252 s.
2.Aşıq Şəmşir. O Kürün, Arazın Tərtəriyəm mən". Bakı: "Sabah" nəşriyyatı, 2004, 510 s.
3.Qasımlı M. Azərbaycan aşıq ədəbiyyatı / Məhərrəm Qasımlı. Bakı: "Şərq-Qərb" nəşriyyatı, 2019, 200 s.
4.Sədnik Paşa Pirsultanlı. Aşıq Şəmşirin poetik aləminə səyahət. Bakı : "Təknur" nəşriyyatı, 2008, 296 s.
5.Gülxani Pənah. Saz-söz ustadları – Dədə Şəmşir (tədqiqlər, tədqiqatlar). Bakı : "UP"nəşrlər evi, 2013, 520 s.
6.Ünvanımız – Dədə Şəmşir. Bakı: "Adiloğlu" nəşriyyatı, 2011, 224 s.

***Сонаханым Хадыева***

**ДЕДЕ ШЕМШИР - СЫН ГОР**

**Резюме**

Ашуг Шемшир, один из видных представителей Азербайджанской ашугской поэзии, был одним из самых известных и любимых ашугов своего времени. Разнообразие тем в его поэзии удивительно. Одна из самых ярких тем в его творчестве – воспевание Родины, родной земли, патриотизма. а также природы. В данной статье обсуждается эта тема.

**Ключевые слова:** *ашугская литература, поэзия, Кельбаджарская литературная среда, Ашуг Шемшир.*

***Sonakhanım Khadiyeva***

**DADA SHAMSHIR, SON OF MOUNTAINS**

**Summary**

Ashig Shamshir, one of the prominent representatives of Azerbaijani ashiq poetry, was one of the well-known and loved artists of his time. The variety of themes in his poetry is remarkable. One of the most prominent themes in his work is the glorification of the motherland, patriotism and nature. This article discusses this topic.

**Key words:** *literature of ashigs, poetics, literary environment of Kalbajar, Ashig Shamshir*

*Redaksiyaya daxil olma tarixi: 18.10.2022*
*Çapa qəbul olunma tarixi: 25.11.2022*

*Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Rübabə Şirinova tərəfindən çapa tövsiyə olunmuşdur.*